# Allah yəhudilərə və xristianlara lənət eləsin! Onlar peyğəmbərlərinin qəbirlərini məscidlərə çevirdilər

Aişə və İbn Abbasdan (Allah onlardan razı olsun) rəvayət edildiyinə görə onlar belə demişlər: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ölümündən qabaq örtüyünü üzünə atmağa başladı. (Ürəyi) sıxıldıqda isə onu üzündən götürürdü. O bu halda ikən belə dedi: "Allah yəhudilərə və xristianlara lənət eləsin! Onlar peyğəmbərlərinin qəbirlərini məscidlərə çevirdilər". (Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, bu sözləri ilə ümmətini) - onların etdikləindən çəkindirirdi.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Aişə və İbn Abbas (Allah onlardan razı olsun) bizlərə Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) vəfatına yaxın son anlarında üzünü bir bez parçası ilə örtdüyünü, ölümün çətin anlarının yaxınlaşması səbəbi ilə nəfəsi daraldıqda üzünü açdığını və Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bu çətin halda ikən belə dediyini xəbər vermişdilər: "Allah yəhudilərə və xristianlara lənət etsin və onları Öz rəhmətindən uzaqlaşdırsın. Çünki onlar, peyğəmbərlərinin qəbirləri üzərində məscidlər tikdilər. Əgər onların etdikləri bu iş, bu qədər təhlükəli olmasaydı Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə bir (çətin) anda bunu söyləməzdi. Buna görə Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ümmətini bu işi etməklə onlara bənzəməyi qadağan etmişdir. Çünki bu yəhudi və xristianların əməlidir və həmçinin Uca Allaha şərik qoşmağa aparan bir vəsilədir.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee